*Osmanlı Fidan Kamran qızı, magistrant,*
*Azərbaycan Dövlət İqtisad Universiteti,*
*Email: fidanosmanli@mail.ru*

# QARABAĞDA DAYANIQLI İNKİŞAF MODELLƏRİ

Dayanıqlı inkişafa dair elmi baxışlar və onun cəmiyyət və insan inkişafının konseptual modeli kimi təsvir edilməsi beynəlxalq ictimaiyyətin daim diqqət mərkəzində olmaqla, qlobal çağırışları özündə əks etdirən müzakirə mövzusuna çevrilmişdir.

Dayanıqlı iqtisadi inkişaf modelinin artıma təsir göstərəcək daha iki amili var: Bunlar İqtisadiyyatın səmərəliliyi və insan kapitalıdır. Qarabağ Dirçəliş Fondu daha səmərəli idarəetmə modelinin yaradıldılması çox uğurlu addımlardan biri oldu. Bu, inkişafın Qarabağ modelinin əsasının qoyulması və uğur qazanacağı təqdirdə Azərbaycanın qalan ərazisində də tətbiq ediləcək. Dayanıqlı iqtisadi inkişaf modelini təhlil edərkən nəzərə çarpacaq qədər işlərin görülməsini görmək olur. Bunlar: Qarabağda smart region yanaşması tətbiq edilməsi: müasir şəhərsalma, dördüncü sənaye inqilabının çağırışlarına uyğun yanaşma, xarici kapital və ən əsası yeni idarəetmə modelinin tətbiqidir.

Azərbaycan Respublikasının iqtisadiyyatının müasir inkişaf mərhələsi sənayeləşdirmə və modernləşdirmə ilə xarakterizə olunur. Belə bir şəraitdə ölkə üçün sənayeləşdirmə kənd təsərrüfatının inkişafı nəzərə alınmaqıla aparılmalıdır. Bu zaman ilk növbədə bilavasitə kənd təsərrüfatı ilə əlaqədar ilan sənaye sahələrini nəzərə alınmalıdır. Bu sənaye sahələrinə yeyinti və yüngül sənayeni və emal sənayesinin digər sahələrini aid etmək olar. Bu sahələrin inkiafının sürətləndirilməsi üzrə dövlətin strategiyası ilk öncə iki vacib məsələnin həllinə xidmət edir: birincisi xalq istehlak malların əhalinin artan tələbatının ödənilməsi; ikincisi isə xalq təsərrüfatının növbəti mərhələlərdə də sənayeləşdirilməsi üçün yığımın yaradılması.

Əsas istiqamət - qida və emal sənayesidir. İnsanların azad edilmiş ərazilərə qayıtmasıyla burada kənd təsərrüfatı məhsullarının emalı üçün imkanlar yaradılacaq. Sovet dövründə üzümçülük, meyvəçilik, tərəvəzçilik, taxılçılıq, pambıqçılıq və kənd təsərrüfatının digər sahələri uğurla inkişaf edirdi, xammal bazası mövcudluğu halında isə şərabçılığı inkişaf etdirmək, meyvə-tərəvəz konservləşdirilməsi və emal sənayesinin digər sahələri üzrə istehsalı yoluna qoymaq asanlıqla mümkün olacaq. Kənd təsərrüfatı və qida sənayesinin inkişafı ilə yanaşı, parkda məhsulların saxlanması və qablaşdırılması üçün sahələr ayrılacaq.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatının inkişafı üçün həm struktur, həm də digər şərtlər baxımından əlverişlidir. İşğaldan əvvəlki dövrdə ölkədə iribuynuzlu mal-qaranın 15,3 faizi, xırdabuynuzluların isə 18,2 faizi həmin ərazilərin payına düşürüdü. İribuynuzlu heyvandarlıqda Laçın, Ağdam və Füzuli rayonlarının, xırdabuynuzlu heyvandarlıqda isə Laçın, Ağdam, Kəlbəcər, Füzuli və Cərbayıl rayonlarının göstəriciləri yüksək idi. Statistik göstəricilərlə yanaşı, işğaldan azad edilən ərazilərin relyefi, iqlim şərtləri və digər təbii imkanları nəzərə alınmaqla Dağlıq Qarabağ və ətraf rayonlarda kənd təsərrüfatının prioritet istiqamətlərini müyyənləşdirmək mümkündür. Belə ki, Cəbrayıl rayonunda heyvandarlıq, üzümçülük və baramaçılıq, Xocalı rayonunda kartofçuluq, üzümçülük və heyvandarlıq, Ağdam rayonunda heyvandarlıq, pambıqçılıq, taxılçılıq, Kəlbəcər rayonunda heyvandarlıq, kartofçuluq, tərəvəzçilik, meyvəçilik, Laçın rayonunda heyvandarlıq, taxılçılıq, bağçılıq, tərəvəzçilik, Qubadlı rayonundaheyvandarlıq, taxılçılıq, arıçılıq, baramaçılıq, üzümçülük, Füzuli rayonunda taxılçılıq, qoyunçuluq, bitkiçilik, Xocavənd rayonunda heyvandarlıq, üzümçülük, quşçuluq, taxılçılıq, bostançılıq, tərəvəzçilik, Şuşa rayonunda heyvandarlıq, meyvəçilik, quşçuluq, Zəngilan rayonunda heyvandarlıq, tütünçülük, taxılçılıq, üzümçülük, arıçılıq, baramaçılıq sahələri üzrə prioritetləri müəyyənləşdirmək mümkündür.

İşğaldan azad olunan ərazilərin inkişaf etdirilməsi üçün ilkin zəruri addımların atılmasına ehtiyac var. İlk növbədə, uzun illər istifadəsiz qalan torpaq sahələrinin yararlı hala gətirilməsi, deqradasiya proseslərinin aradan qaldırılmasına paralel olaraq meliorasiya və irriqasiya sistemlərinin qurulması olduqca vacibdir. Sonrakı mərhələdə isə torpaqların uçotu aparılmalı, kateqoriyaları hazırlanmalı, əkin və otlaq sahələri müəyyənləşdirilməlidir.

Bu gün işğaldan azad olunmuş ərazilərdə iqtisadiyyatın dirçəldilməsi istiqamətində mühüm addımlar atılır.[3] Bu ərazilərdə məşğulluğun təmin olunması, iqtisadi aktivliyin yüksəldilməsində sənaye parkları mühüm rol oynayacaq. Artıq bu ərazilərdə yaradılması planlaşdırılan “Ağdam”, “Araz Vadisi İqtisadi Zonası” sənaye parklarına böyük maraq var. Ağdam Sənaye Parkında müxtəlif çeşidli sintetik xalça, xüsusi və fərdi geyimlər, polimer məhsulları, günəş enerjisi ilə qidalanan işıq dirəkləri və xüsusi dam örtükləri, dəmir-beton məmulatlarının istehsalı üzrə beş layihəyə baxılır. Bu layihələr üzrə mindən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur. Ağdam sənaye klasteri üçün ayrılan sahə işğaldan əvvəl də sənaye istehsalı üçün istifadə edilib. Parkın inkişafı mərhələli şəkildə həyata keçiriləcək. Burada rezidentlər dövlət tərəfindən torpaq sahəsi, nəqliyyat və kommunal xidmətlər də daxil olmaqla lazımi infrastrukturla təmin

olunacaq. Sənayeləşmə prosesi mərhələli şəkildə həyata keçiriləcək.

Qarabağda dağ-mədən sənayesi və metallurgiyanın inkişafı potensialı böyükdür. Sənaye ehtiyatlarını qiymətləndirməlidir. İşğal edilmiş ərazilərdə 155 müxtəlif növ faydalı qazıntı yataqları, o cümlədən, 5 qızıl, 6 civə, 2 mis, 1 qurğuşun və sink, 19 üz-lük daşı və s. var.

Müəssisələrin sənaye parklarında yerləşdirilməsi istehsal növündən asılı olaraq və bütün tikinti norma və qaydaları nəzərə alınmaqla həyata keçirilir, ekoloji cəhətdən təmiz zona elan edilmiş Qarabağ regionunda isə ətraf mühit məsələləri birinci növbədə dayanacaq. Yaşayış ərazilərinə bilavasitə yaxın məntəqələrdə yüngül və qida sənayesi müəssisələri yerləşdirilməyi planlaşdırirlır. Bu parkların əhəmiyyəti eyni zamanda ondan ibarətdir ki, vaxt itkisinə yol verilmir, əmək məhsuldarlığı yüksək olur, təsərrüfatlar bir-biri ilə əlaqəli şəkildə işləyirlər. Bu zonalar iqtisadi inkişafın təmin olunması, iqtisadi aktivliyin yüksəldilməsi baxımından olduqca əhəmiyyətlidir.

Ümumiyyətlə, işğaldan azad olunmuş ərazilərdə sənaye parklarının yaradılması üçün çox böyük potensial var. İstər əkinçilik, istər heyvandarlıq, istərsə də emal sahəsində geniş potensial mövcuddur. Ona görə də həmin ərazilərdə sənaye parklarının yaradılması ölkə iqtisadiyyatı üçün önəmli olacaqdır.

İşğala son qoyulduqdan sonra Qarabağda sənaye istehsalı nöqteyi-nəzərindən inteqrasiya olub.

Qarabağın su resurslarından istifadə edilərək elektrik enerjisinin istehsalı planlaşdırılır. Sərsəng və Xudafərin SES-ləri, habelə irili-xırdalı digər elektrik generasiya gücləri birlikdə Qarabağın enerjiyə olan tələbatını ödəmək imkanına malik olacaqdır. Ümumilikdə isə bu elektrik stansiyalarının ölkənin enerji sisteminə qatılması güclərin artırılmasıdır [4].

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində müalicə əhəmiyyəti olan 110-dək müxtəlif tərkibli mineral su yataqları vardır. Digər ölçü ilə bu 7900 m3/gün mineral su təchizatı deməkdir. Bunların içərisində Kəlbəcər rayonunda Yuxarı və Aşağı İstisu, Keşdək, Laçın rayonunda İlıqsu, Minkənd, Şuşa rayonunda Turşsu, Sırlan və başqa mineral sular diqqəti xüsusilə cəlb edirlər. Kəlbəcər rayonu ərazisində yerləşən İstisu mineral suları özlərinin əlverişli qaz və kimyəvi tərkibinə, yüksək temperaturuna, böyük təbii ehtiyatlarına görə fərqlənir. İstisu bulağı üstündə keçən əsrin 80-ci illərində iri kurort və mineral sudoldurma sənayesi yenidən canlandırıla bilər. Eyni yanaşmanı Şuşada Turşsu mineral bulağında da etmək mümkündür.

## İstifadə olunmuş ədəbiyyat:


1. "Azərbaycan 2021: Gələcəyə baxış" inkişaf konsepsiyası, Bakı şəhəri, 29 dekabr, 2021.
2. Ramiz Mehdiyev "Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti" Məqalə. Xalq qəzeti.- 2009.- 19 iyul.- s. 2.
3. http// www.respublika. news az.
4. http// www.azstat.org